**UOT78.**
**DOI: 10.52094/3005-9941.44.2023.0141**

**Samirə Yasəf qızı Əliyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**baş müəllim**

# AZƏRBAYCAN VƏ TÜRK QANUN ALƏTİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

**Xülasə:** Təqdim olunan məqalə Azərbaycan və Türkiyə qanun alətlərinin oxşar və fərqli cəhətlərinin üzə çıxarılmasına həsr olunmuşdur. Məqalədə Azərbaycan və Türkiyədə tətbiq olunan qanun alətlərinin quruluşu, səsdüzümü, ifaçılıq üsulları qarşı-qarşıya qoyularaq müqayisə edilir. Azərbaycan və Türkiyədə qanun üçün bəstələnmiş əsərlərdən bəhs edilir. Azərbaycan bəstəkarlarının qanun üçün əsərlərindən danışılır. Türkiyəli bəstəkar Hasan ferid anların qanun üçün konserti haqqında məlumat verilir. Azərbaycan bəstəkarlarından: Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Dadaş Dadaşov, İlham Abdullayev, Bikə Axundovanın qanun üçün əsərləri sadalanır. Eyni zamanda xarici ölkə bəstəkarlarının qanun üçün köçürmələri göstərilir.

**Açar sözlər:** qanun, Azərbaycan, Türkiyə, bəstəkar əsərləri, qanun üçün köçürmələr, Hasan Ferid Anlar.

Qanun alətinin qədim və zəngin bir tarixi olub, bu alət Azərbaycan və Türkiyə musiqi mədəniyyətində mühüm rol oynayır. Hələ orta əsrlərdən qanun aləti Azərbaycan və Türkiyə musiqi mədəniyyətində mövcud olmuş və hal-hazırda da musiqi sənətində önəmli yer tutur.

XX əsrdə Azərbaycan qanun ifaçılığında bir sıra yeniliklər baş vermişdir. Belə ki, qanun alətixalq çalğı alətləri orkestrinin tərkibinə daxil edilir. Bu barədə Abbasqulu Nəcəfzadə yazır: “*Qanun aləti 1959-cu ildə Səid Rüstəmovun təşəbbüsü ilə onun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinin tərkibinə daxil edilir. Elə bu ildə Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti dekadasında səsləndirilərək milli musiqimizi layiqincə təmsil edir*” [3, s.54].

Qanun alətimusiqi təhsili sisteminə daxil edilərək, ifaçılıq repertuarına xalq musiqisi, muğamlar və bəstəkar əsərləri daxil edilir. Alətin tədris olunması nəticəsində onun yeni texniki və bədii imkanları aşkar olunur,not yazısı və ştrixləri müəyyənləşdirilir. Qanun alətinin tədrisində bəstəkar əsərlərinin köçürülməsinə böyük zərurət yaranır. Belə ki, qanun üçün məxsusi əsərlərin olmaması köçürmələrin vacibliyini təsdiqləyir və Azərbaycan bəstəkarlarının qarşısında yeni məsələlər qoyulur. Qanun üçün əsərlər bəstələnərək, ifaçılıq repertuarı zənginləşdirilir. Bəstəkar Hacı Xanməmmədovun arfa ilə simfonik orkestr üçün konserti Təranə Əliyeva tərəfindən qanun üçün köçürülərək, tədris repertuarına daxil edilir.

1964-cü ildə Zakir Bağırov qanun alətinin zəngin və incə tembrini, onun texniki imkanlarını nəzərə alaraq, qanun və iki arfa üçün rapsodiya bəstələyir. Əsər görkəmli qanun ifaçısı Asya Tağıyeva, arfa ifaçısı Aida Abdullayeva və Sima Xəlilovanın ifasında səslənərək çox böyük uğur qazanır. Qanun üçün əsərlərin bəstələnməsində Süleyman Ələsgərov və Dadaş Dadaşovun mühüm xidmətləri olmuşdur. Süleyman Ələsgərovun qanun üçün "Poema" əsəri, Dadaş Dadaşovun "Çinarənin sevinci" əsərləri alətin tədrisində və onun akademik şəkildə inkişaf səviyyəsində mühüm addım kimi dəyərləndirilir.

1984-cü ildə qanun ifaçılığının tədrisində və inkişafında mühüm bir qərar qəbul edilir. Belə ki, qanun aləti görkəmli bəstəkar Süleyman Ələsgərovun təşəbbüsü ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) nəzdində tədris olunmağa başlayır.

1985-ci ildə Asiya Tağıyeva və Rauf İmanov tərəfindən qanun aləti üçün ilk tədris proqramı tərtib olunur. Proqrama muğamlar, xalq mahnıları, rəqslərlə yanaşı bəstəkar əsərləri, qamma və etüdlər daxil edilir. Bu proqram gələcək dərs vəsaitlərinin və daha mükəmməl proqramlarının hazırlanmasına şərait yaradır.

1994-cü ildə Nailə Bağırova və Rauf İmanov qanun üçün daha bir proqram tərtib edirlər. Bu proqrama özündən əvvəlki proqramdan fərqli olaraq xarici ölkə bəstəkarlarının əsərləri də daxil edilir. Belə ki, qanun ifaçıları tez bir zamanda bir sıra xarici ölkə bəstəkarlarının əsərlərini qanun üçün köçürərərk repertuarı daha da rəngarəngləşdirirlər.

Müasir dovrümüzdə Azərbaycanda tanınmış qanun ifaçılarından olan Azərbaycan Milli Konservatoriyasının Sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar artist, professor T.Əliyevanın H.Xanməmmədov "Arfa ilə simfonik orkestr üçün konsert", "Azərbaycan və xarici ölkə bəstəkarları üçün Ansambl işləməsi" ,qanun üçün ilk "Qanun məktəbi" adlı dərs vəsaiti bununla yanaşı qanun aləti üçün Y.Qurbanovanın "Qanun və fortepiano üçün işləmələri" , K.Cahangirovanın "Qanun məktəbi" , AMK-nın dosenti, əməkdar artist, Ç.Heydərovanın H.Xanməmmədov "Üç saylı tar və simfonik orkestr" , "Azərbaycan və xarici ölkə bəstkarlarının qanun və fortepiano üçün köçülürmüş əsərləri , AMK-nın dosenti N.Həsənovanın "Solo konsert qanun üçün işləmələri", ADMİU-nin baş müəllimi S.Əliyevanın "Qanun üçün pyeslər məcmuəsi" adlı kitablarının müəllifləridir.

2004-cü ildə Əməkdar artist Təranə Əliyeva tərəfindənqanun ifaçılarından ibarət "İnci" ansamblı fəaliyyətə başlayır. Bu ansambl qanun ifaçılığının inkişafına və formalaşmasına təkan verir. Ansamblın repertuarına xalq musiqisi ilə yanaşı bəstəkar əsərləri də daxil edilir. Ansambl tez bir zamanda çıxışları ilə dinləyicilərin böyük rəğbətini qazanaraq, dövlət tədbirlərində və xarici ölkələrdə ölkəmizi təmsil edir.

2015-ci il "Muğam aləmi" IV Beynəlxalq festivalında qanun aləti müvəffəqiyyətli çıxışı ilə diqqəti cəlb edir. Müasir dövrümüzdə qanun ifaçılığının professional səviyyədə inkişaf etməsi qanun tədrisinin düzgün həyata keçirilməsi ilə

bağlıdır. Lakin, bununla yanaşı Azərbaycan qanun ifaçılığında müəyyən problemlər mövcuddur. Bu problemləri işıqlandırmaq üçün Azərbaycan və Türkiyə qanun ifaçılığının oxşar və fərqli cəhətlərini araşdırmalıyıq.

Azərbaycan qanunu ayağı-ayağın üstünə aşırmaqla ifa edildiyi halda Türkiyə qanunu hər iki diz üzərinə dayaqlanaraq ifa edilir ki, bu da ifaçılıq prosesində daha əlverişli üsul hesab edilir.Ən əsası da odur ki, Türkiyədə qanun aləti iki əllə ifa edilir. Sağ əl melodiyanı ifa edərkən sol əl onu müşayiət edərək, daha dolğun səslənmə yaranır. Azərbaycan qanununda isə hər iki əl unison şəkildə ifa edir.

Azərbaycan qanunu ölçülərinə görə Türkiyə qanunundan cüzi şəkildə fərqlənir. Belə ki, Azərbaycan qanununun uzunluğu 80-90 sm, eni 38-40 sm, qalınlığı 6 sm-dir. Türkiyə qanun alətinin uzunluğu bir qədər böyük olub, 95-100 sm, eni və qalınlığı isə bizim qanunla eynidir. Azərbaycan qanun alətində 2-3 nizamlayıcı olduğu halda, Türkiyə qanun aləti 8-13 nizamlayıcıdan ibarət olur. Xüsusilə fərqli cəhət simlərin sayındadır. Belə ki, Azərbaycan qanun alətinin 24 pərdəsi 72 simi olduğu halda, Türkiyə qanun alətinin 26 pərdəsi və 78 simi mövcuddur. Simlərin sayının çox olduğu üçün Türkiyə qanununda 1\4 tonları ifa etmək mümkündür. Azərbaycan qanununda isə 1\4 tonları əldə etmək mümkün deyil. Bunun üçün də Azərbaycan qanun alətində Şərq üslublu əsərləri və mahnıları ifa etmək ifa zaman çətinlik yaradır. Azərbaycan qanun alətinə 1\4 tonların əlavə edilməsi bəzi muğamlar və rəqslərimizin daha düzgün şəkildə ifasına şərait yarada bilər. Məsələn: "Segah", "Şur", "Mahur", "Humayun", "Bayatı-Şiraz" muğamları, "Vağzalı", "Tərəkəmə", "Gülgəzi" xalq rəqsləri, "Ay ləli yar", "Durnam", "Dilbərim", "Elə baxma", "Bağdagül" xalq mahnılarının ifasında 1\4 tonları aydın eşidə bilərik. Lakin, bu səsləri Azərbaycan qanun alətində hasil etmək qeyri-mümkündür. Bunun üçün də müasir dövrümüzdə Türkiyə qanunlarına maraq daha böyük olub, ifaçılar Türk qanun alətinə üstünlük verirlər.

Azərbaycan və Türkiyə qanun alətində bütün intervalları,ikili notları, üçsəsli akkordları ifa etmək mümkündür. İkili notlar, seksta (böyük və kiçik), septima (böyük və kiçik) və oktava intervalları *tremolo* ilə ifa edilir.

Azərbaycan və Türkiyə qanunu arasında daha bir fərq pərdə və simlərin ardıcıllaşması ilə bağlıdır.

*"Türkiyədə qanun alətinin pərdə və simlərinin adı makam adları ilə bağlıdır. Azərbaycan qanununda isə pərdə və simlərin ardıcıllaşmasıqamma pillələrinə uyğundur*".[2, s.23]

Türkiyədə Taksim üçlüyünün ifaçısı Aytaç Doğanın ifaçılıq üslubları Azərbaycanda qanun ifaçılığında geniş şəkildə tətbiq olunur. Aytac Doğan qanun alətinə gitara üslubu gətirməklə qanun ifaçılığını daha müasir bir şəkildə təqdim etmişdir.

Azərbaycandan fərqli olaraq Türkiyədə qanun üçün çoxlu sayda iri həcmli əsərlər bəstələnmişdir. Bunlardan Hasan Ferid Alnarın qanun üçün konsertini misal göstərmək olar. Bu əsərdə Şərq və Qərb sintezi parlaq şəkildə ifadə edilmişdir.

Hasan Ferid Anlar 1944-1951-ci illər ərzində qanun üçün bir-neçə konsert bəstələsə də onlardan biri daha da məşhurlaşmışdır. Qanun üçün 1 saylıkonsert Vyanada ilk dəfə səsləndirildikdən sonra bəstəkar tərəfindən yenidən redaktə edilmişdir.

1 saylı konsert obraz baxımından rəngarəng olub, burada lirik, dramatik və həyatsevər obrazlar dairəsi tərənnüm olunur ki, bu obrazlar qanun alətində peşəkarlıqla ifadə edilir. Alət bütün obrazları dəqiqliklə canlandırmağa müvəffəq olur. Lirik obrazlar mahnıvari plastikliklə, şən və oynaq cizgilər isə təntənəli şəkildə tərənnüm edilir. Hasan Ferid Alnarın qanun üçün konserti ənənəvi konsert janrına xas olan üsulları özündə əks etdirir. Konsert üç hissədən ibarətdir: I hissə *Moderato,* II hissə *Lento non troppo*, III hissə *Alleqro poco Moderato.*Birinci və üçüncü hissələr təntənəli, ikinci hissə isə lirik xarakteri təcəssüm etdirir.

Qanun üçün 1 saylı konsertdə alətin ifaçılıq texnikasını nümayiş etdirmək üçün mürəkkəb passajlar, zəngin fiqurasiyalar, mövzuların variantlı inkişafı və sekvensiya tipli hərəkət verilir. Bəstəkar qanun alətinin texniki imkanlarını daha aydın göstərmək üçün ikili notlara, oktavalı keçidlərə üstünlük verir. Qanun ilə orkestrin dialoqu, imitasiyalı səslənmələr, melodiyanın gah sürətli və gah da ağır templə səslənməsi alətin tembr boyalarını açır. İşlənmə bölməsində mürəkkəb passajların ardıcıl olaraq tətbiqi səslənməyə təzadlılıq gətirir. Qanun aləti bütün bu passajları dəqiqliklə yerinə yetirərək, özünün inkişaf etmiş və müasir dövrün tələblərinə cavab verə bilən bir alət olduğunu bir daha təsdiqləyir. Bütün hissələrdə məqam-tonallıq dəyişmələri də diqqəti cəlb edir. Konsertin musiqi dili məqam-tonallıq qarşılaşdırmaları, dinamik ştrixlər və melizmlərlə zəngindir.

Türkiyədən fərqli olaraq Azərbaycanda qanun üçün ilk konsert bir qədər sonra-2009-cu ildə bəstələnmişdir. Bəstəkar Dadaş Dadaşov "Çinarənin sevinci" əsərinin ugurundan sonra yenidən qanun üçün daha böyük və maraqlı bir əsər yaradır. Belə ki, onun qanun və kamera orkestri üçün 3 hissəli konsertini qanun ifaçılığında və repertuarın zənginləşməsində mühüm bir addım kimi dəyərləndirmək lazımdır. Əsərin ilk ifasını dinləyən musiqişünas Lalə Hüseynova qeyd edir: *"Dadaş Dadaşovun qanun konserti 2012-ci ildə Ukraynada keçirilən Azərbaycan musiqi günlərində və TatarıstandaTürkdilli ölkə bəstəkarlarının I Musiqi Festivalında səslənərək, musiqi tənqidçiləri, dinləyicilər və musiqisevərlər tərəfindən yüksək qiymətləndirilir"* [6, s.9].

Adlarını çəkdiyimiz əsərlərdən başqa Hacı Xanməmmədovun qanun üçün "Arzu rəqsi", "Bahar süitası", Süleyman Ələsgərovun qanun üçün "Bahar melodiyaları", "Sözsüz mahnı", "Qarabağ havaları", İlham Abdullayevin qanun və fortepiano üçün 2 pyesi,Oqtay Zülfüqarovun qanun və piano üçün konsert pyesi, "Beşik mahnısı"nı göstərə bilərik. Bu əsərlərin hər biri qanun ifaçılığında mühüm rol oynayaraq ali və orta musiqi təhsil müəssisələrinin tədris proqramlarına daxil edilmişdir. Müasir dövrümüzün istedadlı bəstəkarlarından olan Pikə Axundova qanun alətinin zəngin tembr boyalarını nəzərə alaraq məhz qanun üçün S.Ələsgərovun təklifi ilə "Kapriççio" bəstələyir. Əsər "Andante assai" tempində, h-

moll tonallığında səslənərək, burada ifa prosesində barmaqların vəziyyəti, passaj və akkordların ifa üslubu diqqətlə nəzərə alınmışdır. Bikə Axundovanın öz yaradıcılığında qanun alətinə yer verməsi müasir bəstəkarlarımız üçün bir nümunədir. İstərdik ki, müasir bəstəkarlarımız öz yaradıcılıqlarında qanun üçün əsərlərin bəstələnməsinə yer ayırsınlar və alətin bədii-texniki imkanlarını müasir musiqi dili vasitəsilə xarakterizə etsinlər.

Son illərdə qanun üçün əsərlərin köçürülməsi sahəsində də mühüm işlər görülür. Belə ki, bir sıra xarici ölkə bəstəkarlarının əsərləri ilk dəfə olaraq qanun üçün köçürülərək, tədris proqramına daxil edilir. Məsələn: F.Şopen "Vals", P.Çaykovski "Güllər valsı", C.Vilyams "Şindlerin siyahısı" kinofilmindən "Mövzu", D.Yunq, R.Lovland "Gizli bağ", L.Dentsa"Funikuli, Funikula", K.Dimitresku "Kəndli rəqsi"və sairə.

Beləliklə, qanun aləti Azərbaycan və Türkiyə musiqi mədəniyyətində mühüm rol oynayır. Azərbaycan və Türkiyə qanun alətlərinin özünəməxsus xüsusiyyətləri olub, onlar arasında müəyyən oxşar və fərqli cəhətlər mövcuddur. Qanun alətinin zəngin tembri bütün dövrlərdə bəstəkarların diqqətini cəlb etmiş, həm Azərbaycan və həm də Türk bəstəkarları qanun alətinə bir-birindən maraqlı əsərlər həsr etmişlər.

## Ədəbiyyat siyahısı:

1. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). B.: Adiloğlu, 2002, 454 s.
2. Nəcəfzadə A. Xalq çalğı alətlərinin tədrisi metodikası. Dərs vəsaiti. Bakı, MBM, 2007, 63 səh.
3. Hüseynova L.Ş. Yüksək meyar və keyfiyyət keşiyində: Dadaş Dadaşovun bəstəkar və müəllim portretinə bəzi ştrixlər. "Konservatoriya" jurnalı, 2015-ci il, №3, s.6-11.
4. Əliyeva T. Asya Tağıyeva-70. Musiqi dünyası, №11\4, 2000.
5. Hüseynova L.Ş. Yüksək meyar və keyfiyyət keşiyində: Dadaş Dadaşovun bəstəkar və müəllim portretinə bəzi ştrixlər // "Konservatoriya" jurnalı, 2015-3, s.6-11

**Самира Ясеф кызы Алиева**

## Сходства и различия Азербайджанского и Турецкого инструмента Канон

**Резюме:** Представленная статья посвящена выявлению сходств и различий между инструментами Канона Азербайджана и Турции. В статье сравнивается структура, звучание и методы применения инструментов Канон, используемых в Азербайджане и Турции. Упоминаются работы, написанные для канона в Азербайджане и Турции. Обсуждаются произведения азербайджанских композиторов для канона. Сообщается о концерте турецкого композитора Хасана Ферида Анлара для канона. Среди азербайджанских

композиторов перечислены произведения Гаджи Ханмамедова, Сулеймана Алескеарова, Дадаш Дадашова, Ильхам Абдуллаева, произведения Пике Ахундовой для канона . В то же время показаны оркестрованные произведения иностранных композиторов для канона.

**Ключевые слова:** канон, Азербайджан, Турция, произведения композиторов, оркестровки для канона, Хасан Ферид Анлар.

**Samira Yasef gizi Aliyeva**

## Similarities and differences of Azerbaijani and Turkish kanun instruments

**Summary:** The presented article is dedicated to revealing the similarities and differences between the kanun instruments of Azerbaijan and Turkey. The article compares the structure, sound, and performance methods of kanun instruments used in Azerbaijan and Turkey. Works composed for the kanun instruments in Azerbaijan and Turkey are mentioned. The works of Azerbaijani composers for the kanun instruments are discussed. Turkish composer Hasan Ferid Anan's concert for the is kanun instruments reported. Among the Azerbaijani composers: Haji Khanmammadov, Suleyman Alasgarov, Dadash Dadashov, Ilham Abdullayev, Bika Akhundova's works for listed. At the same time, the transfers of foreign composers for are kanun instruments shown.

**Key words:** kanon, Azerbaijan, Turkey, composer's works, transfers for kanon, Hasan Ferid Anlar.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.12.2023**